agma
AZƏRBAYCAN GƏNC MÜƏLLİMLƏR ASSOSİASİYASI

ANA DİLİ
AZƏRBAYCAN MƏKTƏBİ

# Ana dili – Azərbaycan məktəbi

# HESABAT

**25 dekabr 2023-cü il**

Ana dilini
məsafədən öyrən!



Azərbaycan Gənc Müəllimlər Assosiasiyasının təşəbbüsü ilə reallaşan "Ana dili – Azərbaycan məktəbi" ölkəmizdən kənarda yaşayan, müxtəlif yaş qruplarından olan soydaşlarımız üçün Azərbaycan dilində məsafədən öyrənmə imkanını təmin edən layihədir.

**Yaş kateqoriyaları** isə aşağıdakı kimi müəyyən olunmuşdur:

- **6-8 yaş**
- **9-10 yaş**
- **11-13 yaş**
- **14-18 yaş**
- **18 yaşdan böyük**

## Tədrisin müddəti:

- **Dərslərin başlama tarixi:** 15 sentyabr 2023-cü il
- **Layihənin əhatə etdiyi dövr:** 2023-2024-cü tədris ili
- **I rüb** 15 sentyabr – 15 dekabr
- **II rüb** 15 yanvar – 15 aprel

## Qeydiyyat prosesi:

Qeydiyyat 7 iyul 2023-cü il tarixində başlamış və 12 avqust 2023-cü il tarixində başa çatmışdır.

Ümumilikdə

**575 nəfər şəxs**

layihədə iştirak etmək üçün qeydiyyatdan keçmişdir.

12 oktyabr 2023-cü il tarixində yenidən qeydiyyat elan edilmiş və ümumi **müraciət sayı 659-a çatmışdır**.

Hazırda

# 359 layihə iştirakçısı

dərslərə qoşulur.

Çoxsaylı müraciətləri nəzərə alaraq **18 yaşdan böyük** müraciətçilər üçün pilot olaraq 20 nəfərdən ibarət 2 qrup təşkil olunmuşdur.

## Tədris prosesi

Dərslər həftədə 2 dəfə olmaqla "Microsoft Teams" platforması vasitəsilə onlayn qaydada təşkil edilir. ***Dərslər tamamilə ödənişsiz keçilir.***

Ümumilikdə

- **36 qrupa dərslər keçirilib,**
- **qruplarda minimum 6, maksimum 12 nəfər olmuşdur.**
- **Dərslərə davamiyyət 70 % ətrafındadır.**

## Tədris proqramının məzmunu

Tədris proqramı pilot olaraq ***2 səviyyəni əhatə edəcək*** və hər bir səviyyə üzrə ***24 saat Azərbaycan dili*** tədris ediləcəkdir. Proqramın məzmunu ölkəmizin tarixi, ədəbiyyatı, coğrafiyası və mədəniyyəti haqqında ətraflı məlumatların daxil edildiyi mövzular əsasında təcrübəli mütəxəssislər tərəfindən hazırlanıb və davamlı olaraq təkmilləşdirilir. Tədris prosesi zaman müxtəlif öyrədici interaktiv metodlardan və resurslardan istifadə olunur.

## Müəllimlər haqqında

İndiyədək ümumilikdə 48 müəllim layihədə iştirak üçün müraciət etmiş və ilkin seçim ***prosesində 35 müəllimin meyarlara uyğun olduğu müəyyən edilmişdir***. Qeyd edək ki, müraciət edən müəllim arasında orta məktəb müəllimləri ilə yanaşı ***ali təhsil müəssisələrində*** çalışan müəllimlər də var.



**11 müəllim** tərəfindən dərslər tədris olunmuş,
Hər bir müəllim minimum 2, maksimum 4 qrupa dərs keçmişdir.

## Ölkələr üzrə statistika

| | | | |
|---|---|---|---|
| İran | 41,5% | Birləşmiş Krallıq | 3,5% |
| Rusiya | 10,7% | BƏƏ | 2,9% |
| Almaniya | 6,3% | Türkiyə | 2,9% |
| ABŞ | 4,9% | İsveç | 2,3% |
| Avstraliya | 4,3% | Fransa | 2,3% |

## Yaş üzrə statistika

| | |
|---|---|
| 6-8 yaşlılar üzrə | 102 nəfər |
| 9-10 yaşlılar üzrə | 78 nəfər |
| 11-13 yaşlılar üzrə | 84 nəfər |
| 14-18 yaşlılar üzrə | 75 nəfər |
| 18 yaşdan yuxarı | 20 nəfər |

## Yay Məktəbi:

2023-2024-cü tədris ilində iki səviyyə üzrə proqramı uğurla bitirən və dərslərdə uğurlu nəticə göstərən həmvətənlərimizin iştirakı ilə Bakı şəhərində Yay Məktəbinin təşkil olunması nəzərdə tutulur.

Birinci yarımil üzrə dərslər artıq başa çatmışdır, tədris proqramına uyğun olaraq 24 saat Azərbaycan dili tədris olunmuş və sonda təhsilalanların dilbilmə səviyyəsini müəyyən etmək məqsədilə diaqnostik imtahan keçirilmişdir.

Diaqnostik imtahanın nəticələrinə uyğun olaraq

**218 nəfər**

layihə iştirakçısına sertifikat veriləcəkdir.

7 dekabr 2024-cü il tarixində ikinci yarımil üzrə qeydiyyat elan olunmuşdur. Birinci yarımildə dərslərdə iştirak edən soydaşlarımız ikinci yarımildə növbəti səviyyə üzrə dərslərə davam edəcəklər, həmçinin yeni qrupların yaradılması nəzərdə tutulur.

Son qeydiyyat tarixi: 7 yanvar 2024-cü il

## Media

Layihənin təbliğatı üçün AZTV, APA TV, ATV, CBC TV, İTV, XƏZƏR TV olmaqla ***6 fərqli televiziya kanalı*** layihə haqqında videoçarxlar təqdim edilib.

***6 xəbər portalı*** - AZƏRTAC, REPORT, QAFQAZİNFO, OXU.AZ, AZERBAYCAN24.COM, MODERN.AZ layihə ilə bağlı məqalələr çap etmişdir.

Əlavə olaraq, sosial media vasitəsilə soydaşlarımız tərəfindən layihənin təbliğinə dəstək üçün çox sayda paylaşım edilmişdir.

**Sosial media hesabları:** https://linktr.ee/anadili











agma
AZƏRBAYCAN GƏNC MÜƏLLİMLƏR ASSOSİASİYASI

ANA DİLİ AZƏRBAYCAN MƏKTƏBİ

# Diqqətiniz üçün Təşəkkür edirik!